**№ 03/2020**
**15.07.2020**

**Azərbaycan Respublikasının Prezidenti**
**Cənab İlham Əliyevə**

**Surəti:** **Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti**
**Heydər Əliyev Fondunun Prezidenti**
**Xanım Mehriban Əliyevaya**

Cənab Prezident, Sizə müraciət etməyimizin səbəbi Açıq Məkanda Reklam Yerləşdirmə sahəsinin üzləşdiyi böhran vəziyyətidir.

Bildiyiniz kimi, son aylarda koronavirus pandemiyası qlobal təhlükə olaraq Respublikamızdan da yan keçməmişdir. Sizin tapşırıqlarınız ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atılmışdır.

Nazirlər Kabineti yanında Operativ Qərargahın 30 Mart 2020-ci il tarixli koronavirus (covid-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında məlumatında 31 mart 2020-ci il tarixindən insanların həyat və fəaliyyəti üçün zəruri olan iş və xidmət sahələrindən başqa digər istiqamətlər üzrə fəaliyyətlər dayandırılmışdır.

Təbii olaraq insanların fərdi evlərində və mənzillərində, daimi və ya müvəqqəti yaşadıqları (olduqları) yerlərdə qalmaları tələb olunduğu halda açıq hava reklamları öz qüvvəsini itirir. Bu halda onlayn satışlara icazə verildiyi üçün müştərilərimiz büdcələrini

rəqəmsal reklam vasitələrinə yönəldirlər. Bu səbəbdən təbii olaraq beynəlxalq və yerli şirkətlər açıq hava reklamlarının icarələrindən imtina edirlər.

Reklam şirkətlərinin əsas maliyyə öhdəliklərindən biri reklam qurğularına görə Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinə yayım haqqlarının ödənilməsidir. Azərbaycan Dövlət Reklam Agentliyinin tələblərinə əsasən reklam şirkətləri reklam qurğuları üzərində reklamın yayımlanıb yayımlanmamasından asılı olmayaraq bütün qurğular üzrə yayım haqqlarını tam olaraq ödəyirlər.

Pandemiya dövründə satışların kəskin azalmasının nəticəsi olaraq reklam şirkətləri bu şərtlərlə yayım haqqlarını ödəyə bilmirlər. 08.05.2020-ci il tarixində Nazirlər Kabineti yanında Operativ Qərargaha və Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinə müraciət edərək aprel və may ayları üçün yayım haqqlarından reklam şirkətlərini azad etməsini xahiş etdik. Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin reklam şirkətlərinə ünvanladığı cavab məktubunda qeyd edilmişdir:

"Açıq məkanda reklam yayımına görə ödənilən haqqın məbləğində güzəşt tətbiqi ilə bağlı təkliflər hazırlanaraq baxılması üçün aidiyyəti dövlət orqanına təqdim olunmuşdur. Odur ki, yayım haqqında güzəşt tətbiq olunması yalnız məsələ ilə əlaqədar müfaviq qərar qəbul olunacağı halda mümkün ola bilər. Diqqətinizə çatdırırıq ki, sözügedən qərar qəbul ediləcək (və ya edilməyəcəyi halda) açıq məkanda reklam yayımına görə haqqın məbləği ilə bağlı öhdəliyiniz mövcud qanunvericiliyə əsasən icra olunmalıdır."

Cənab Prezident, əgər biz reklam şirkətləri olaraq pandemiya dövründə reklam yayım haqqların ödəmə öhdəliyini icra etmə məcburiyyətində qalsaq, bir çox şirkət yaranmış maliyə çətinlikərinə görə özlərini müflis elan edib, fəaliyyətlərini dəyandıracaqdır və bunun nəticəsi olaraq yüzlərlə vətəndaş işsiz qalacaqdır.

Halhazırkı durumda reklam şirkətlərinin düşdüyü iqtisadi çətinliyi və fəaliyyətsizliyi nəzərə alaraq reklam şirkətlərini 2020-ci il aprel, may, iyun və iyul ayları üçün reklam yayım haqqlarından azad olunması və ya Reklam haqqında Azərbaycan Respublikasının qanununun 10.5 maddəsinə əsasən reklam yayımına görə ödənilən haqqın bütün reklam qurğularında sosial reklam kimi hesablanması üçün köməklik göstərməyinizi Sizdən xahiş edirik.

RMM QRUP MMC-nin icraçı direktoru R.Əsgərov

Renesans Reklam və İstehsal KO MMC-nin icraçı direktoru Z.Gülməmmədov

Project Company Ltd MMC-nin direktoru E.Hüseyn

JCDECAUX Azərbaycan MMC Ə.Paşayev

Azreklam MMC-nin direktoru E.Novruzov

Mirror MMC-nin direktoru İ.İbrahimov

Smartvey MMC-nin direktoru V.Alimov

Artmood Advertising Agency MMC-nin təsisçisi X.Mütəllimova

ADV Production MMC-nin direktoru V.Nəsibov

UP Media MMC-nin direktoru A.İsmayılova

HG Group MMC-nin direktoru G.Zeynalzadə

Nihat 2015 MMC-nin direktoru N.Salamova

Setline MMC-nin direktoru S.Cəfərov

NYU LINEOO MMC-nin direktoru F.Əliyev

Brend Media MMC-nin direktoru E.Məmmədov

Kontur Reklam MMC-nin direktoru F.Yusifov

Etnos Reklam Xidməti MMC-nin baş direktoru D.Hüseynzadə